# Nağıllaşmış ömür



**Mürsəl İrəvanlı,**
Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı
Gəncə şəhəri

*Həzrəti Peyğəmbərimiz alimin qələminin mürəkkəbini şəhid qanı ilə eyni tutub. «Alim öldü, aləm öldü» deyiblər. Alim bütün zamanlar üçün dəyərli, qiymətli bir xəzinə olub. Hətta ən zalım şahlar belə, öz sarayında alimlər üçün xüsusi hücrə ayırıb, məmləkətin idarə edilməsində bu alimlərin məsləhətindən yararlanıb. Təqdim etdiyimiz yazının qəhrəmanı da alimdir.*

## İrəvanda xalq qalmadı...

Biri vardı, biri yoxdu Qərbi Azərbaycanın tarixi İrəvan mahalında iri gözlü, bəstə boylu, qıvrım saçlı bir oğlan vardı. Əsrlərin iyirmincisində, illərin iyirmi doqquzuncusunda, ayların səkkizincisində, günlərin isə birincisində işıqlı dünyaya göz açmışdı. Dədə Qorqud qopuzundan süzülüb gələn adqoyma mərasimində Ulduz adı qoydular bu cocuğa. Günlərin birincisində doğulan bu göyçək balanı hər yerdə birinci görmək istəyilə Ulduz adlandırdılar. Bu uşağı göylərin ənginliklərindən qopub gələn bir ulduz kimi öz aralarında görmək istədilər.

Təbiətin qızmar vaxtı dünyaya gəldiyindən, elə uşaq vaxtından qayım-qayım qaynayar, hər şeyi öz gücü, öz bacarığı ilə əldə etməyə can atardı.

*Uşaqlar adətən iki cür olur: Bir qismi - mən kimin komandasında oynayacağam, deyər. Digər qismi isə - kim mənim komandamda oynamaq istəyir, deyə soruşar. Bağır Ulduz da ikincilərdən olub. Mübarizlik, öndə getmək, haqsızlığa qarşı barışmazlıq bu insanın həyat prinsipinə çevrilib. Məhz elə bu səbəbdəndir ki, ömrünün müdrik çağında, Azərbaycan SSRİ tərkibində olduğu bir zamanda, xalq bu imperiyaya qarşı ayağa durduğu bir vaxtda, millətin ön sırasında Bağır Ulduz kimi sərkərdə addımlayırdı. Bu barədə daha sonra danışacağıq.*

Uşaqlığı heç də hamar keçməyib Bağır Ulduzun. Əksər tay-tuşları kimi müharibə dövrünün ağrı-acısını o da yaşayıb. Uşaqlıq və gənclik dövrü anadan olduğu İrəvan şəhərində keçib. Orta təhsilini başa vurduqdan sonra isə Göyçə mahalına, Basarkeçər rayonunun Dərə kəndinə müəllim göndərilir. 1945-1946-cı tədris ilində burada ilk əmək fəaliyyətinə başlayan Bağır müəllim, 1946-cı ildə İrəvan şəhərindəki Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinə daxil olur. Lakin o burada təhsilini başa vura bilmir. Azərbaycanlıların öz ata-baba yurdlarından sürgün olunması ilə bağlı olaraq digər məktəb və təhsil ocaqları kimi, institutdakı Azərbaycan şöbəsi də bağlanır. Buna görə də o, təhsilini Bakıda-Azərbaycan Dövlət Pedaqoji İnstitutunda davam etdirməli olur. 1950-ci ildə ali məktəbin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirir. Hər bir çətinliyə sinə gərməyi öyrənmiş, qarşılaşdığı çətinliyin özündə bir macara axtaran bu cavan oğlan, bu dəfə də çətinlikdən qorxmadığını sübut etmək üçün Azərbaycanın ən ucqar kəndini - Kəlbəcər rayon Yanşaq kəndini özü üçün yeni fəaliyyət məskəni seçir. 1950-1952-ci illəri bu kənddə müəllimlik edən Bağır Ulduz, elə həmin ildən də gənc, bacarıqlı mütəxəssis kimi Gəncəyə çağırılır.

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə Bağır Bağırovun ilk iş yeri Gəncə Vilayət (1952-ci ildə Bakı və Gəncə vilayətləri təşkil olunmuşdu) Xalq Maarif Şöbəsində inspektor vəzifəsi olur. 23 yaşında ikən belə məsul bir vəzifəyə təyin olunan Bağır Ulduz, 1952-ci ildən etibarən taleyini Gəncə ilə bağlayır.



## İkinci Vətən

Bu şəhər Bağır müəllim üçün düşərli olur. 1953-cü ildən 1966-cı ilə qədər onun həyatının yüksəliş dövrü də adlandırmaq olar. Bu müddət ərzində 23, 15, 7, 16 saylı məktəblərdə, Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında, Gəncə Rayonlararası Xalq Yaradıcılığı Evində direktor kimi fəaliyyət göstərib.

*Yenilik hissi ilə yaşayan Bağır Ulduz çox keçmədən elm aləminə qədəm qoydu. 1961-1965-ci illərdə ADPİ-nun aspiranturasında təhsilini başa vurduqdan sonra, 1970-1972-ci illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda doktorant olub. Bağır Ulduz namizədlik («Orta məktəblərdə Xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığının tədrisi»), az sonra isə 1974-cü ildə doktorluq («Xalq şairi Rəsul Rzanın poeziyası») dissertasiyasını müdafiə edir.*

Bağır Ulduz həm məhsuldar, həm də arayan-axtaran yaradıcı alimi idi. O, əllidən artıq monoqrafiya, kitab, kitabça, tədris vəsaitinin, külli miqdarda qəzet və jurnal məqaləsinin müəllifidir.

Görkəmli alim-ədəbiyyatşünas, mahir pedaqoq, yazıçı-publisist Bağır Ulduz Bağırov Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Teatr Xadimləri İttifaqının üzvü, keçmiş SSRİ-nin maarif əlaçısı, respublikanın qabaqcıl maarif xadimi, filologiya elmləri doktoru, əmək və müharibə veteranı, Gəncə Dövlət Universitetinin professoru olmuşdur.

Bu söylədiklərimiz Bağır Bağırovun əldə etdiyi uğurların çox qısa xronologiyasıdır. Əslində uzun illər sərf olunan bu uğurların hər bir anı alim üçün əzab-əziyyətli, əziyyətli olduğu üçün də dəyərli və qiymətlidir.

Ən dəyərlisi isə bu illər ərzində görüşdüyü, dost olduğu, artıq tarixləşmiş, heykəlləşmiş tərəfdaşlarının xatirələridir.

## Ömrün anları

Ömrünün müdriklik çağına qədəm qoyan Bağır müəllim ümumxalq məhəbbəti qazanmış, adı hər yerdə hörmət və ehtiramla çəkilən ziyalılardan hesab olunurdu. Həm də B.Bağırov bu hörmət və ehtiramı elə-belə əldə etməyib. Hələ gənclik dövründən özündən yaşca və cəmiyyətdəki nüfuzlarına görə xeyli böyük şəxsiyyətlərin ılıq münasibətlərini, diqqət və hörmətlərini hiss edib. 1958-ci ildə Gəncəyə gələn türk xalqının azman şairi Nazim Hikməti 29 yaşlı Bağır Ulduz müşayiət edirdi. Hələ sağlığında böyüklüyü, qüdrətli bir şair olması etiraf edilən Nazim Hikmətlə bir sırada təmsil olunmaq, onun barəsində söz demək üçün ən azı Nazim Hikmət səviyyəsinə layiq olmalısan. Bir daha təkrar edirik ki, Bağır müəllim artıq 29 yaşında bu haqqı qazanmış, bu görəvə layiq görülmüşdü. Şairlə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (indiki Aqrar Universitetdə) görüş zamanı Bağır müəllimin alovlu çıxışı indinin özündə də yaddaşlarda yaşamaqdadır.

***

**Bağır**
**bağır**
**bağırıram!..**
**Sizi qurğuşun əritməyə çağırıram!..**
*(Nazim Hikmət)*

Vətənpərvər şair, hər kəlməsindən alov püskürən Xəlil Rza Ulutürk Bağır Bağırovla hər görüşündə Nazim Hikmətin bu sözlərini epiqraf seçərmiş.

1991-ci ilin oktyabr ayının sonlarında Azərbaycan ədəbiyyat və incəsənət xadimlərinin böyük bir qrupu Bakıdan Moskvaya yola düşür. Həmin heyətdə Bağır müəllim də iştirak edir. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 850 illiyi əvvəlcə paytaxt Moskvada, sonra isə Sankt-Peterburqda qeyd olunacaqdı. Onu da deyək ki, dahi şairin anadan olmasının 800 illiyi də ilk dəfə Leninqradda - düşmən mühasirəsində olan qəhrəman şəhərdə keçirilmişdi.

Bakı təyyarə limanında çoxdanın tanışları və bir-birlərinə rəğbətləri olan Bağır Ulduzla Xəlil Rza rastlaşır və hər ikisi bu görüşdən çox məmnun olur. Elə burdaca Xəlil bəy, yanındakı dolu bədənli, gülərüz bir oğlanı Bağır müəllimə təqdim edir:

*- Mirzə Bağır, tanış ol, bu, şair Eldar Baxışdır.*

*Məlum olur ki, onlar da Moskvaya gedəcək heyətin tərkibindədirlər.*

*Şairin yubileyi paytaxtda böyük təntənə ilə qeyd olunduqdan sonra, nümayəndə heyəti ertəsi gün Sankt-Peterburqa yola düşür. Ermitajın birinci - alt mərtəbəsində Nizami Gəncəvinin yubileyi münasibəti ilə ölkənin hər yerindən gəlmiş qonaqlar toplanmışdı.*

*Gecəni şəhərin meri Sobçak aparırdı. Xəlil Rza, Eldar Baxış və Bağır Ulduz bir sırada oturmuşdu. Gecənin yarısında Eldar Baxış Bağır Ulduza tərəf bir kağız uzadıb deyir:*

- Xəlildəndir.

Zal qaranlıq olduğundan, Bağır müəllim həmin dəqiqə kağızı oxuya bilmir.

*Uşaqlığı heç də hamar keçməyib Bağır Ulduzun. Əksər tay-tuşları kimi müharibə dövrünün ağrı-acısını o da yaşayıb. Uşaqlıq və gənclik dövrü anadan olduğu İrəvan şəhərində keçib. Orta təhsilini başa vurduqdan sonra isə Göyçə mahalına, Basarkeçər rayonunun Dərə kəndinə müəllim göndərilir. 1945-1946-cı tədris ilində burada ilk əmək fəaliyyətinə başlayan Bağır müəllim, 1946-cı ildə İrəvan şəhərindəki Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinə daxil olur. Lakin o burada təhsilini başa vura bilmir. Azərbaycanlıların öz ata-baba yurdlarından sürgün olunması ilə bağlı olaraq digər məktəb və təhsil ocaqları kimi, institutdakı Azərbaycan şöbəsi də bağlanır. Buna görə də o, təhsilini Bakıda-Azərbaycan Dövlət Pedaqoji İnstitutunda davam etdirməli olur*

Sonradan həmin kağızın varlığını unudan Bağır müəllim, üstündən 10 ildən artıq vaxt keçəndən sonra, təsadüfən arxivindən dördkünc qatlanmış həmin kağızı tapır, oxuyur və bu kağızı vaxtında oxumadığına çox təəssüflənir.

Xəlil bəy Bağır müəllimə ünvanladığı həmin kağızda yazmışdı:

**Mehriban qardaşım Bağırov Bağır,**
**Burda qalx ayağa şir kimi hayqır!**
**Haramdan törəmə Sankt-Peterburqun,**
**Daşı-daş üstündə qalmayacaqdır!**

**Sən bizə nə süsən, nə də lalə ver,**
**Nə Kəpəz arxalı ağ şəlalə ver.**
**Bu təşnə-tamarzı, lütkom şəhərdə,**
**Ürək sərinlədən bir piyalə ver.**

**Araq-çaxır tapmasan,**
**Qonar qələ ovduğa.**
**Gedib ağız açmayaq,**
**Sobçak kimi qoduğa.**
*(X.R.Ulutürk, E.Baxış)*

Olduqca ağır və qorxulu bir zamanda - hələ partiyanın hökm fərman olduğu bir vaxtda, beyinlərin hələ sovet xəfiyyələri tərəfindən «oxunduğu» bir məqamda Sankt-Peterburqu «haramdan törəmə» şəhər adlandırmaq, şəhər merini (özü də yubileyi aparanı) «qoduq» saymaq sözün həqiqi mənasında Xəlil qürurundan, Xəlil vətəndaşlığından, Xəlil qəhrəmanlığından xəbər verirdi.

Xəlil bəy öz iç dünyasını isə yalnız Bağır müəllim kimi sirdaşlara aça bilərdi.

## Bağır Ulduza ünvanlanmış sətirlər

"Azərbaycan sovet poeziyasının ciddi, tələbkar və ləyaqətli tədqiqatçısı dostum Bağır Bağırov, yəqin ki, siz indi məni daha yaxşı tanıyırsınız, qəlbimin səhifələrini oxumusunuz. Əgər bu tanışlıq mənə olan hörmətinizi bir az da olsa artırıbsa xoşbəxtəm!

**Rəsul Rza**

Görkəmli alim Bağır Ulduz ömrünün müəyyən hissəsini Rəsul Rza poeziyasının təhqiqatına həsr edib. Rəsul Rza Azərbaycan sovet poeziyasının əsasını qoyan, yaradıcılığı ilə onun inkişaf yollarına istiqamət verən görkəmli şairlərimizdən biridir. Azərbaycan sovet poeziyası tarixinin hər hansı bir dövrünü nəzərdən keçirdikdə şairin səsini eşidir, onun bənzərsiz dəsti-xəttini görürük. Müasir poeziyanı Rəsul Rzasız təsəvvür etmək qeyri-mümkündür. Bu baxımdan Bağır müəllimin onun irsinə müraciət etməsi tam təbiidir. Amma Rəsul Rzanın həyatda olduğu bir vaxtda onun yaradıcılığını tədqiq etmək, buna münasibət bildirmək o qədər də asan deyildi. Bağır müəllimin bu böyük şairin həyatına, yaradıcılığına, şəxsiyyətinə həsr etdiyi Kitab-Albomu tam orijinal bir vasitə, elm sahəsində heç kimin istifadə etmədiyi bir yol idi. Həqiqətən də Rəsul Rza ədəbi-bədii sərvətini bir xəzinə kimi seçib üzə çıxarmaq üçün tədqiqatçı iti zərgər gözünə malik olmalıdır!

*Bağır Ulduz da məhz o alimlərdən idi ki, gördüyü hər bir iş əsl ziyalının, ədəbiyyatını, poeziyasını sevən hər kəsin stolüstü kitabına çevrilir. Bağır Ulduz Bağırov 14 yanvar 2010-cu ildə 82 yaşında vəfat etmişdir.*

*Ruhu şad olsun!*